**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

Haradan: SBRS

Haraya: MİƏİ, MİHİ, MHSİ, MRTİ, MHMİ

Surəti: Aİ üzv ölkələrindəki Səfirliklər, NAVŞ, NNAT, SVŞN

Çıxış nömrəsi: SBRS/ 631 /15

Tarix: /14 / 10 /15

Sənəd necə göndərilir: Elektron poçt

Səfirliyin ........................N-li məktubuna istinad

Səhifələrin sayı: 1+ 1

Əlavə olunur

Məhdudluq qrifi: Adi

Təciliyi: Çox təcili

Vacibliyi: Çox vacib

Əvvəlki müraciətlər:

XİN-in ..................... N-li məktubuna cavab
..................................................tarixinə qədər cavab verilməlidir

Məruzə üçün: Nazirə,
Nazir müavini: M.Məmməd-Quliyevə
Nazir müavini: X.Xələfova

Məlumat verilməsi üçün: AR Prezidentinin Administrasiyasına
AR iqtisadiyyat və sənaye naziri Ş.Mustafayevə

**Məsələyə dair:** *Avropa İttifaqı və Ermənistan arasında Çərçivə Sazişi üzrə danışıqlara başlanılmasına dair*

Səfir Fuad İsgəndərov

İcraçı: Anar Şükürov

12 oktyabr 2015-ci il tarixində Luksemburqda keçirilmiş Avropa İttifaqı (Aİ) Xarici İşlər Nazirləri Şurasının iclasının yekunlarına istinadən nəzərinizə çatdırırıq ki, sözügedən Şura Aİ-nin Ermənistanla yeni, hüquq öhdəlikli və hərtərəfli Saziş layihəsi üzrə danışıqlara başlaması və bu danışıqları aparması üçün Avropa Komissiyası və Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqeriniyə mandatın verilməsi haqqında qərar qəbul etmişdir.

Yeni ikitərəfli Saziş qüvvədə olan Aİ-Ermənistan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişini əvəz edəcəkdir. Aİ-nin rəsmi sənədlərinə istinadən Saziş "Bir tərəfdən Aİ, Avropa Atom Enerjisi Birliyi və onların üzv ölkələri, digər tərəfdən Ermənistan Respublikası arasında Çərçivə Sazişi" *(Framework Agreement between the European and the European Atomic Energy Community and their Member States, of the one part, and the Republic of Armenia, of the other part)* adlandırılacaqdır. Saziş layihəsi üzrə danışıqlara cari ilin sonun qədər başlanğıc verilməsi nəzərdə tutulur.

Məlumat üçün diqqətinizə təqdim olunur.